AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 11/3

Bakı şəhəri 29 iyun 2018-ci il

AMEA-nın professorlarının
koordinasiya şurasının yaradılması haqqında

AMEA Rəyasət Heyətinin 18 yanvar 2017-ci il tarixli 1/2 nömrəli qərarı ilə “Azərbaycan Milli Elmlər Akademiyasının professoru” elmi adı təsis olunmuş və AMEA Rəyasət Heyətinin 22 fevral 2017-ci il tarixli 3/3 nömrəli qərarı ilə “AMEA-nın professoru” elmi adı haqqında Əsasnamə təsdiq edilmişdir.

“AMEA-nın professoru elmi adı haqqında Əsasnamə”nin tələblərinə müvafiq olaraq, “AMEA-nın professoru” elmi adını almaq üçün müsabiqə elan edilmiş, namizədlərin müəyyən olunması üçün AMEA-nın müvafiq elmi bölmələrinin ümumi yığıncaqlarında gizli səsvermə keçirilmişdir. AMEA Rəyasət Heyətinin 05 iyul 2017-ci il tarixli iclasında gizli səsvermə yolu ilə seçilmiş şəxslər “AMEA-nın professoru” olaraq təsdiq edilmişdirlər.

“AMEA-nın professoru elmi adı haqqında Əsasnamə”də göstərilmişdir ki, AMEA-nın professorları AMEA-nın Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsində fəal iştirak etməli, öz fəaliyyətində elmlə təhsilin inteqrasiyasına xüsusi diqqət ayırmalı, kadr hazırlığında və tədris prosesində, elmi biliklərin və nailiyyətlərin təbliğində, onların populyarlaşdırılmasında, habelə innovativ fəaliyyətin inkişaf etdirilməsində dəstək verməlidirlər.

AMEA-nın professorları üçün müəyyən edilmiş vəzifələri həyata keçirmək, həmçinin onların Akademiyanın elmi və elmi-təşkilati həyatında daha yaxından iştirakına nail olmaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA Rəyasət Heyəti nəzdində AMEA professorlarının koordinasiya şurası yaradılsın.

2. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə tapşırılsın ki, “AMEA professorlarının koordinasiya şurasının Əsasnaməsi”nin layihəsi hazırlanaraq AMEA Rəyasət Heyətinə təqdim edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ MƏRKƏZİ APARAT PROTOKOL ŞÖBƏSİ